# Ağalar İdrisoğlu:
# "Haqqa güvənirəm, bir də ailəmə..."

***- Ağalar müəllim, siz Azərbaycan teatr mühitində çox yaxşı tanınmırsız. Ən bacarıqlı teatr təşkilatçılarından birisiz. Həm də istər Bakıda, istər Sumqayıtda, eləcə də respublikanın bir sıra teatrlarında tamaşalar qurmusuz, el şənliklərinə, kütləvi tədbirlərə rəhbərlik etmisiz. Azərbaycan teatr aləmində sizin özünüzə görə adınız-sanınız var. Amma, butün bunlarla yanaşı, istərdik rejissor, aktyor, yazıçı Ağalar İdrisoğlu ilə daha yaxından tanış olaq. Belə tanışlığı isə istər-istəməz uşaqlıqdan başlamaq lazım gəlir.***

- Hacı, məni belə böyük rəğbətlə təqdim etdiyinizə görə çox-çox təşəkkür... Qaldı uşaqlığıma... 1950-ci ilin martında Masallı rayonunun Digah kəndində dünyaya göz açmışam. Əvvəlcə, kəndimizdəki səkkizillik, sonra da Masallıda orta məktəbi bitirmişəm. Böyük çıxmasın, qələmə, yazıb-yaratmağa əvvəldən özümdə tükənməz bir həvəs, bir ehtiras hiss eləmişəm. İlk yazılarım 66-67-ci illərdə Masallının "Çağırış", həm də "Azərbaycan pioneri" qəzetlərində çap olunub. Qələmlə yanaşı, məndə qoşa qanad kimi teatra, səhnəyə güclü meyl olub. Məndəki səhnə eşqini Masallı Mədəniyyət Evində Şakir Həsənov və Adil Səfərovun birlikdə yaratdıqları Miniatür Teatrı daha da ciddiləşdirib. Fürsətdən istifadə edərək həmin o ilk sənət müəllimlərimə öz təşəkkürümü çatdırmaq istərdim.

***- Belə başa düşürəm ki, orta məktəbi qurtarandan sonra, necə deyərlər, yol ayrıcında qalmısız – qələm, yəni yazı-pozunu davam etdirmək, ya da ki...***

- ...Düz deyirsiz, orta məktəbi qurtarandan sonri həqiqətən iki yol ayrıcında qaldım – ya jurnalistika fakültəsinə girməliydim, ya da səhnəni, teatrı seçməliydim. İkincini seçdim. 1971-ci ildə sənədlərimi Mirzağa Əliyev adına Azərbaycan Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə verdim və SSRİ Xalq artisti Mehdi Məmmədovun kursuna qəbul olundum. Gəl ki, bircə ildən sonra qələm eşqi güc gəldi, istədim ordan Universitetin jurnalistika fakültəsinə keçim. Amma Mehdi müəllim məni bu sevdadan döndərdi. "Qal elə burda oxu... – dedi. Oxudum. 1975-ci ildə həmin fakültəni bitirəndən sonra təyinatla Şəki Dövlət Dram Teatrına göndərildim. O vaxt Şəki teatrı təzəcə yaranmışdı. Baş rejissoru da rəhmətlik Vaqif Abbasov idi. Bir truppa müdiri kimi də mən ona bacardığım dərəcədə kömək eləyirdim...

***- Bəs necə oldu ki, Sumqayıt teatrına keçdiz?***

- Ailəm Sumqayıtda qalmışdı, özümsə Şəkidəydim. Həm də ki, elə o dövrdə Sumqayıt Dövlət Dram Teatrına dəvət olundum, və o gündən öz taleyimi demək olar ki, Sum-



qayıtla bağladım.

***- Eşitdiyimə görə, Sumqayıtın sənət həyatında çox fəal iştirak eləmisiz.***

- Bilirsiz, mənim xasiyyətim elədi ki, hara düşsəm orda bekar dayana bilmirəm. Yəni, necə deyərlər, əlimi qoynuma qoyub dayanmaq mənim xarakterimdə yoxdur. Teatrda çalışmaqla bərabər, mən Sumqayıt şəhərindəki 49 nömrəli texniki-peşə məktə-

bində "Ümid" adlı Teatr-Studiya yaratdım. Qısa vaxtın içərisində bu Studiyanın başına, inanın ki, iki yüzə qədər adam yığışdı. Sonra mənim yaratdığım kollektiv Xalq teatrı adına layiq görüldü. Sonradan buna Sumqayıt Tənqid-Təbliğ teatrı da deyirdilər. Fəxrlə deyə bilərəm ki, indi respublikanın bir çox teatrlarında, mənim xeyli yetirməm çalışır. Onlardan bəziləri hətta fəxri adlar daşıyır. Studiya, Teatr yaratmaq mənim şakərimdir. İndinin özündə Şabran Mədəniyyət və Turizm İdarəsinin nəzdində "Şabran" Teatr Studiyası yaratmışam. İlk tamaşamızı da artıq göstərmişik.

*- Teatr təşkilatçılığınız öz yerində... Bunu heç kəs dana bilməz. Aktyorluğunuzu da başa düşdük. Bəs axı Siz həm də rejissor kimi tanınırsız. Rejissorluğunuz da Sumqayıt teatrından başlayır?*

- Sözümün bu yerində yenə bayaq dediyimin üstünə qayıdıram. Məndə boş-bekar oturub kimdənsə nəsə gözləmək yoxdu. Uğurlumu, ya uğursuz, başım daşamı dəyəcək, ya pambığa – fərqi yoxdur, mütləq irəli getməliyəm. 81-86-cı illərdə Moskvada Lunaçarski adına Sənət İnstitutunun rejissorluq fakültəsində oxudum. Onu desəm yəqin orijinallıq etmərəm ki, Moskvanın teatr mühiti, o şəhərin sənət dünyası, orda gördüyüm tamaşalar, yaradıcılıq təcrübəsi – hansı səviyyədə olur-olsun – hər cür institutdan, peşə təhsilindən qat-qat yüksəkdir. Açığını deyim ki, bu günün özündə də Moskvanın sənət ab-havası mənə öz təsirini yenə göstərməkdədir.

*- Səhv etmirəmsə, bir müddət Ağdam teatrında da çalışmısız.*

- Bəli. 85-ci ildə Azərbaycan Mədəniyyət Nazirliyinin sərəncamı ilə Ağdam Dövlət



Dram Teatrına quruluşçu-rejissor vəzifəsinə göndərildim. Mənim Ağdam teatrında gecə-gündüz çalışmağıma göz qoyan, sənət xiridarı hələ Şəki teatrına göstərdiyi bənzərsiz qayğıdan tanıdığım Ağdam rayonunun o vaxtkı birinci katibi Sadıq müəllim Murtuzayevin tövsiyyəsi ilə çox keçmədi ki, mən Ağdam teatrında baş rejissor və direktor vəzifələrini eyni vaxtda icra eləməyə başladım. Ağdamda işlədiyim təxminən 3 il 4 ay ərzində 16 tamaşaya quruluş verdim. Onlardan bəzisi hətta Ümumittifaq səviyyəsində qeyd olundu, Moskva mətbuatında anıldı.

*- Siz yəqin fransız dramaturgiyası festivalı ərəfəsində hazırladığınız Alber Kamyunun "Qismət" tamaşasını nəzərdə tutursuz.*

- Bəli. O vaxt müəyyən bir ölkənin dramaturgiyasına həsr olunmuş festival tamaşalarına mütləq Moskvadan komissiya gəlib baxırdı. Onda da belə oldu. SSRİ Mədəniyyət Nazirliyinin 5 nəfərdən ibarət komissiyası Ağdama məhz A.Kamyunun bu əsərinə baxmağa gəldi. Onlar üçün də maraqlı idi ki, görəsən bu vaxta qədər "Ağdam" çaxırından tanıdıqları bu rayonda böyük fransız ədibinin bu fəlsəfi əsərini necə hazırlayıblar? Onu da deyim ki, pyesin əsl adı "Anlaşılmazlıq"dı, biz onu "Qismət" elədik... Özünü öymək olmasın, "Qismət"in rejissor yozumu və aktyor oyunu onların çox xoşuna gəldi. Həmin tamaşada o vaxt baş rolu, dünyadan vaxtsız köçmüş, çox istedadlı bir aktrisa – Simuzər xanım Namazova oynayırdı. Ruhu şad olsun. Komissiya baxandan sonra istər Bakıda, is-

tərsə Ümumittifaq mətbuatında tamaşa tərifləndi, bu barədə ressenziya çap olundu. Sovetlər İttifaqgnda Alber Kamyunun dram yaradıcılığına bəlkə də ilk müraciətlərdən biri Ağdam teatrında oldu. Komissiya üzvlərindən birinin zarafatla dediyi sözlər indi də yadımdadır: "Da, oçen interesno. Eto "konyak Kamyu Aqdamskoqo razliva".

***- Bəs necə oldu ki, təzədən Sumqayıta qayıtdız?***

- Sonra aləm qarışdı... Qarabağ müharibəsi başladı. Qısaca onu deyim ki, sonrakı hadisələrdə Teatr – yenə bir güvənc, direniş, dayaq nöqtəsi oldu... Azərbaycan Mədəniyyət Nazirliyi məni Sumqayıt Dövlət Teatrına direktor vəzifəsinə təyin etdi. İl yarımdan sonra isə seçki yolu ilə mən o teatrın həm direktoru oldum, həm də bədii rəhbəri. Yenə Sumqayıtda "dinc" dayanmadım. Sumqayıt Dövlət Teatrının – Musiqili-Dram Teatrına çevrilmə ideyasını irəli sürdüm. Aşağıdan-yuxarı bu ideya bəyənildi və teatra 80 əlavə ştat verildi. Elə özüm də o təzə Musiqili-Dram Teatrında Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasını hazırladım.

***- Boynumuza alaq ki, 90-cı illərdə maliyyə cəhətdən teatrlar da çox sıxıntı çəkdi. Elə bir vaxtda 80 əlavə ştat almağınız təəccüb doğurur.***

- Hələ bu harasıdır?! Açığını deyim ki, 80-ci ilin axırı, 90-cı illərin əvvəlində teatrlar artıq demək olar ki, "öz başını dolandırmalı" idi. Teatr özü əsər, müəllif seçməli, yerin "altındanmı-üstündənmi" pul tapıb teatrda işləyənlərin maaşını verməliydi. Sözün əsl mənasında o vaxt teatrların çoxu, necə deyərlər, "acından köpük qusurdu". Teatrların əksəri aylarla maaş üzü görmürdü. Belə bir vaxtda Sumqayıt teatrında elə bir ay olmadı ki, mən camaatın maaşını gecikdirim, yaxud kollektiv sıxıntı çəksin. Onda mən Sumqayıt teatrını nəinki rayonlara, hətta Azərbaycandan uzaqlara belə – Dağıstana, Qazaxıstana, Şimali Osetiyaya, Gürcüstana qastrollara apardım. Xüsusilə Qazaxıstana qastrol səfərimiz zamanı SSRİ Xalq artisti, görkəmli rejissor Azərbaycan Mambetovla şəxsi dostluğum böyük rol oynadı.

***- Heç kəsdən gizlin deyil ki, o vaxt teatrların çoxunun repertuarına təsadüfi adamların təsadüfi pyesləri düşürdü. Sizdə vəziyyət necəydi?***

- Bəli, müəlliflərdən bir-ikisi yerli yazar idi. Onların da yazdığına heç zəif əsər deməzdim. Həm də imkanı olanlar teatra hər cürə dəstək olurdu. Bunun nəyi pisdir ki? O vaxtkı Sumqayıt teatrının repertuarına fikir verin: Cəlil Məmmədquluzadənin "Kamança", Vasili Şukşinin "Diribaş adamlar", Nəcəf bəy Vəzirovun "Ağa Kərim xan Ərdəbilli", Anarın "Zəncir", Cəfər Cabbarlının "Oqtay Eloğlu", Georqi Xuqayevin "Qocaların məhəbbəti", "Varlı ev", Zəlimxan Yaqubun "Aşıq Ələsgər", Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar", Sabir Rüstəmxanlının portret cizgiləri, İlyas Əfəndiyevin "Məhv olmuş gündəliklər", A.Suxovo-Kobılinin "Tarelkinin ölümü" və sairə.

***- Belə çıxır ki, həmin illərdə Siz Sumqayıt teatrını, əgər demək mümkünsə, "ovcunuzun içində" saxlamısız. Çox teatrların yerindən tərpənməyə taqəti olmayanda Siz Sumqayıt teatrını respublikadan uzaqlara qastrola aparmısız. Bəs sonra necə oldu ki, birdən-birə 1997-ci ildə ərizə yazıb, bədii rəhbəri və direktoru olduğunuz Sumqayıt Dövlət Musiqili-Dram Teatrından işdən çıxdız, Dağıstana üz tutduz?***

- Bəli, çox açıb-ağartmaq, xırdalamaq istəmirəm. Tez-tez paxıllığa, gözügötürməzliyə tuş gəlmişəm, desəm, inanın. Açıq-açığına, belə deyək də, ayağımın altını qazıyıblar. Mən də təngə gəlib ərizə yazmışam və getmişəm Dağıstana işləməyə. Orda Dağıstan Beynəlmiləl Teatr truppasına rəhbərlik etdim. Fəxr eləyirəm ki, iki respublika arasında mədəni və dostluq əlaqələrinin möhkəmlənməsində az da olsa mənim zəhmətim olub. O vaxt Dərbənddə Azərbaycan Dövlət Dram Teatrını bərpa etmək bir müşkülə çevrilmişdi. Mən Dərbənd ziyalılarına təklif elədim ki, Beynəlmiləl Teatr truppasını, təzə açılacaq Azərbaycan Dram Teatrı ilə birləşdirək. Təəssüf ki, yenə də burdan – Bakıdan işi burdular. Açığını deyim ki, həvəsdən düşdüm, yenidən Azərbaycana qayıtmaqdan özgə çarəm qalmadı.

***- Axı siz bir müddət Teatr Xadimləri İttifaqında da çalışmısız.***

- Bəli, onda Teatr Xadimləri İttifaqının sədri, Xalq artisti Həsənağa Turabov idi...

***- Bu illər ərzində, səhv etmiriksə, qələmdən də ayrılmamısız. Bir-birinin ardınca pyeslər, hekayələr, povestlər, hətta roman da yazmısız.***

- Düz deyirsiz. Bəzən darıxdığım, sıxıntı keçirdiyim günlərdə təsəllini yenə də qələmdə tapırdım. Əlbəttə, keyfiyyət baxımından deyə bilmərəm, hər halda nəsr əsərlərimin arasında gözə dəyən, diqqət çəkən nümunələr olmamış deyil. Xüsusilə hekayələrimin içərisində... Belə götürəndə hər halda mən respublikanın teatr aləmində 45 ildən



artıq can qoymuşam. 100-ə qədər tamaşaya quruluş vermişəm. İstər-istəməz mənim adım afişalara, proqramlara yazılıbsa, deməli, Azərbaycan teatrının tarixində imzam görünəcək. Qaldı ki, mənim yazdığım pyeslər, povestlər və hekayələr... deyim ki, "Şah İsmayıl" pyesim 2010-cu ildə Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin keçirdiyi müsabiqədə, 34 pyesin içərisində ikinci dərəcəli mükafata layiq görülüb. Birinci mükafat heç kəsə verilməyib. Ümumiyyətlə, bu vaxta qədər 10 pyes yazmışam. Tamaşaya qoyulanı da var, qoyulmayanı da. Tərcümə etdiyim əsərlər də az deyil... Bu illər ərzində jurnalistikadan da ayrılmamışam. "Azad Azərbaycan" qəzetinin ədəbiyyat və incəsənət şöbəsinin müdiri vəzifəsində çalışıram. Ümumiyyətlə, bu vaxta qədər 500-ə qədər məqalənin, resenziya və oçerkin müəllifiyəm. Özümü heç vaxt nə teatrsız, nə səhnəsiz, nə də qələmsiz təsəvvürə gətirə bilmərəm.

*- Qəribədir ki, bu illər ərzində ədəbiyyat və sənətin adını çəkdiyiniz sahələrindən, onların heç birindən soyumamısız.*

- Bilirsiz, sizə bir ailə sirrini də açım. Mənə həyatdan vaxtsız köçmüş böyük qardaşımın adını qoyublar. Və elə bil ki, özümdən başqa o rəhmətlik qardaşımın da həyatdakı və sənətdəki yükü mənim çiyinlərimə düşüb. Bir sahədən ayrılıb o birisi ilə daha sıx şəkildə məşğul olmaq, sənətin ayrı-ayrı, bacardığım sahələri arasında ögey-doğmalıq salmağı heç vaxt özümə rəva görməmişəm və görmərəm...

*- Səhv eləmiriksə, siz həm də indi Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında rejissorsuz.*

- Bəli. Onu da deyim ki, arada, binasızlıq ucbatından Azərbaycan Dövlət Gənclər Teatrı ilə Gənc Tamaşaçılar Teatrı birləşdi. Vaxtilə, istedadlı rejissor, rəhmətlik Hüseynağa Atakişiyevin rəhbərlik etdiyi Gənclər teatrı ilə birlikdə hamımız Gənc Tamaşaçılar Teatrına sığındıq. Kamera teatrı da üstəlik...

*- Axı o teatrların birləşməyi və bir-birinə qaynayıb-qarışmağı nəsə ağla sığmazdır. Çünki, o teatrların hərəsinin öz yolu, öz prinsipləri var.*

- Elə olmağına elədi. Amma onları yenə də ümumi yaradıcılıq yolu və sənət mənafeyi birləşdirə bilər və yəqin ki, bu proses nə qədər çətin görünsə də, hər halda öz həllini tapmalıdır.

*- Gənc Tamaşaçılar Teatrında bu vaxt ərzində yəqin ki, tamaşalar hazırlamısız?*

- Bəli. Gənclər Teatrı Gənc Tamaşaçılar Teatrının "evinə köçəndən" sonra "Əcəl atı" tamaşası bu teatrda ilk işim oldu. Əsər bizim üçün ən aktual mövzuya – Qarabağ dərdinə həsr olunub. Və mən deyərdim ki, heç bir haysız-küysüz, səlis və gözəl xalq dilində yazılmış bu əsərdə bizə üz verən bu böyük Dərdin kökləri qəribə şəkildə araşdırılır. Quruluşun yaxşı-yamanlığından söhbət getmir... Pyesin özü geniş diskussiya yarada bilərdi. Çünki, bu pyesdə hadisələr, bizim adət etdiyimiz "üç badam, bir qoz" ətrafında cərəyan eləmir. Ən natural gerçəklik, xalq mifologiyasına, rəmzlərə söykənərək irəli gedir, Təkliyə, Təsəvvüfə pənah aparır, bizim yaxamızdan yapışaraq silkələyir, ayıldır... Hələ onu demirəm ki, bu pyesdə Qəmər Məmmədovanın oynadığı baş rol sözün əsl mənasında aktrisanın yaradıcılıq hünəridir... Sonra Firuz

Mustafanın "Pələng ili" adında məncə, çox maraqlı pyesini səhnəyə çıxardım. Qurduğum hər iki əsər bədii-dramaturji cəhətdən xeyli maraq doğursa da, çox təəssüf, respublika mətbuatında – öz döşlərinə döyən, guya "problem dramaturgiyası" sorağında gəzib-dolaşan tənqidçilərin və teatrşünasların marağından kənarda qaldı. Deməli, "problem dramaturgiyası", guya müasir həyatın ən dərin qatlarına nüfuz etmə barədə teatr söz-söhbəti sadəcə olaraq bir görüntüdü. Bunun dərinliyinə varan azdır, yaxud da varmaq istəmirlər.

***- Hər halda, teatr sahəsində Sizin bu cür səmərəli fəaliyyətiniz nəzərdən qaçmayıb. Gec də olsa, Əməkdar İncəsənət Xadimi fəxri adına layiq görülmüsüz.***

- Nə yaxşı ki, çəkilən zəhmət gec-tez öz bəhrəsini verir. 50 ilə yaxın jurnalistika, teatr, ədəbiyyat və ümumiyyətlə sənət sahəsində xidmətlərim belə yüksək qiymətləndirildiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə həqiqətən minnətdaram. Eyni zamanda Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevə, onun müavini Ədalət Vəliyevə öz dərin təşəkkürümü bildirirəm. Bəli, gec də olsa haqq öz yerini tutur. Bu 50 ildə mənə mane olanlar, mənim zəhmətimi gözü götürməyənlər çox olub. İndinin özündə də var. Gündəlik həyatda və işimdə belə adamlar yenə də rastıma çıxır. Həyatımda çox problemlər olub və mən onları birər-birər dəf eləyə-eləyə gəlib 65 yaşa çıxmışam...

***- Yada salmaq nə qədər xoşagəlməz olsa da, bir məsələyə toxunmasam olmaz. Bir neçə ay bundan əvvəl hüquq-mühafizə orqanları ilə bir problem də yaşadız.***

- Yaşadım, bəli. Yenə də mən öz Allahıma, yaxşı adamlara, dostlarıma minnətdaram. Elə düşmənlərimə də yamanlıq istəmərəm. Çünki, onlar məni daim sərvaxt olmağa məcbur eləyirlər... Bilirsiz, mən son vaxtlar, necə deyərlər, papağımı qabağıma qoyub özüm barədə çox fikirləşmişəm. Belə qərara gəlmişəm ki, ən böyük səhvim insanlarda – bəzilərinin mayasında olmayan mütləq nəciblik axtarmaqdı. **Başıma gələnlər – elə hamıya yaxşılıq etməyə çalışdığımdan və elədiyim yaxşılığın həddini, hüdudunu bilməməyimdəndi...** Bu sözümün davamını gətirmək istəməzdim... Yeri gəlmişkən deyim... Bir gün Həzrət Əliyə xəbər çatdırırlar ki, bəs filankəs sənin qaranca danışır. Həzrət Əli xeyli fikrə gedir və deyir: "Nə əcəb? Mən ki ona heç bir yaxşılıq eləməmişəm"... Hacı, bu məsələnin də gəl elə burda nöqtəsini qoyaq.

***- Ən çox güvəndiyiniz və arxalandığınız kimdir və nədir?***

- Arxalandığım yalnız və yalnız o bir olan Allahımdır... Güvəndiyimsə Ailəm. İkisi də mənə qüvvət verir, yaşadır...

***- Ağalar müəllim, yəqin ki, vaxtınızı çox aldıq. Sizə uzun ömür, can sağlığı və əlbəttə ki, bir-birinin ardınca yaradıcılıq uğurları arzulayırıq – teatrda, sənətdə və qələmdə. Qoy 65 yaşınızdan sonra həyatda dostlarınız daha çox olsun...***



**Ağalar İdrisoğlunun ömür və sənət yoluna Hacı Tofiq Seyidzadə** işıq tutdu